# TANRI İŞIĞIMIZIN "QARABAĞA DÖNÜŞ"Ü

## *Ordumuzun 44 günlük savaşdakı qələbəsi torpaq üzərində yazılmış qəhrəmanlıq kitabıdır.*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

**VI yazı**
**III hissə**

Məndən soruşsaydılar ki, "Qarabağa dönüş" poeması haqqında nə üçün geniş danışıram, dəqiq və aydın şəkildə cavab verərdim ki, insanlığın anlaşması üçün, haqsızın kimliyini anlatmaq üçün "Qarabağa dönüş" kimi əsərlər açardı. Biz bir çox hallarda ən mühüm mənəvi problemləri həll etməyin yolunu mənəvi sərvətləri ruhumuza əxz etməklə tapa bilirik. Bu mənada, "Qarabağa dönüş" əsəri təkcə Sabir Rüstəmxanlının deyil, bu əsər elə bütövlükdə Azərbaycan xalqının, Azərbaycan adlı məmləkətin öz əsəridir. Bu, haqqı tapdalanmış, şəhərləri, kəndləri dağıdılmış, torpaqlarına ölüm saçan minalar əkilmiş məmləkətin səsidir, millətin səsidir. Ona görə də əslində gələcəyə tarixin dərslərini yaddaş kitabı kimi yaşatmaq üçün "Qarabağa dönüş" kimi əsərlərə təkrar-təkrar müraciət etmək, bu əsəri ruhumuzun səsi kimi gələcəyə ötürmək bizim bu günün, yəni XX əsrin ən dəhşətli olaylarının şahidi olanlar üçün əsas missiyadır. Sabir Rüstəmxanlı yaşının indiki müdrik çağında böyük zəhmətə qatlaşaraq, mənəvi enerjisini səfərbər edərək, ən başlıcası, ilhamına güvənərək bir tarixi yaddaş dərsliyi yaradıb. Düşünürəm ki, bu dərslik insanlıq dəyərlərinin uca tutulması üçün hər birimizin stolüstü kitabı olmalıdır. Yəni, gələcəkdə də kimsə bizim haqqımızı tapdalayacaqsa, onun cavabını vaxtında vermək, ona sərhədlərini göstərmək məhz belə əsərlərin təlqini ilə mümkündür.

Elə adamlar var ki, ədəbiyyatın, sözün, sənətin cəmiyyətin inkişafındakı rolunu ya görmür, ya da görməzliyə vurur. Bu böyük həqiqəti vicdan əzabı çəkmədən danmağa çalışır, inkar edir. Ancaq birmənalı şəkildə qeyd etməliyik ki, əgər bəşər nəsli ancaq maddi sərvətləri yaratmaqla kifayətlənsəydi, onun mənəvi inkişafından söhbət gedə bilməzdi. Bəlkə də, təbiət etibarı ilə elə vəhşi olaraq qalardı. Onsuz da, insanlıq hələ də bir çox hallarda mənəvi kriteriyaların tələblərini pozur. Biri digərinin haqqını tapdalayır. Anlaşma zamanı zora üstünlük verilir. Təəssüf ki, bu təkcə ayrı-ayrı adamlar arasında deyil, bütövlükdə xalqlar, dövlətlər arasında da anlaşılmazlıq ucbatından kütləvi insan qırğınlarına şərait yaranır.

Təkrar-təkrar qeyd edirik ki, "Qarabağa dönüş" kimi əsərlər XX əsr Azərbaycan xalqının başına gələn müsibətlərin həm mənzərəsini göstərir, həm də tarixi zorlamış olan yırtıcılara, qəddarlara qarşı layiqli cavabın verildiyi dövrün özünü göstərən tarixi bir sənəddir.

Gözümüzün qabağında Ukrayna-Rusiya fəlakətləri, İsrail-Həmas qarşıdurması, Suriya hadisələri hər gün minlərlə insanın qanının axıdılması ilə müşayiət olunur. Əsl heyvani bir mənzərəni gördükcə qəlbimiz qan ağlayır. Körpə uşaqlar bombardman altında parça tikə olur, insan əlinin, insan zəkasının qüdrəti ilə yaradılmış göydələnlər, abad şəhərlər bir-birinin arxasınca dəhşətli dağıdıcı bombaların zərbələri ilə yerlə-yeksan edilir. İnsanlar səhralara axışır, kimsəsizliyə üz tuturlar. Qidasızlıq, susuzluq ilan mələyən çöllərin kimsəsizliyinə sığınmış günahsızların məhvi məkanına çevrilir.

Nəhayət, bir daha təkrar etməyə dəyər ki, əgər insanlığa çağırış motivləri ilə süslənmiş zəka məhsulları, bədii yaradıcılıq nümunələri olmasaydı, onda vəziyyət daha acınacaqlı olarıd. Yəni insan donunda yırtıcıların qarşılaşması ilə üz-üzə qalardıq. Həyatımızın mənası, mahiyyəti bundan ibarətdir ki, biz insan olduğumuzu, yəni cəmiyyətə xeyirxahlıq niyyəti ilə əməli fəaliyyətimizi gərək əsirgəməyək. Təəssüf ki, çox vaxt həyatın gedişatı bizim istədiklərimizin əksinə olur.

30 ildən çox Azərbaycan diplomatiyası dünyaya həqiqəti çatdırmağa çalışdı. Hər kəs bütün gücü ilə dünyanın aparıcı güc mərkəzlərinə anlatmaq istəyirdi ki, Ermənistan işğalçıdır. Tarix boyu Azərbaycan ərazilərini mənimsəyə-mənimsəyə XX əsrin axırına çatıb və bu zaman şəraitdən istifadə edərək Azərbaycan torpaqlarını işğal edib. Sülh yolu ilə həqiqətləri anlatmaq mümkün oldumu? Təəssüf ki, zaman keçdikcə Azərbaycan torpaqlarını işğaldan azad etməli olan Ermənistan sülhü ilğıma çevirdi. Son nəticədə isə "Qarabağ Ermənistandır" deməklə, ümumiyyətlə, Azərbaycan torpaqlarındna çəkilmək istəmədiklərini bəyan etdi. Nəticə isə göz qabağındadır.

S.Rüstəmxanlı "Qarabağa dönüş" poeması ilə bıçağın sümüyə dayandığı yerdən başlanan həqiqətləri yazıb. Əsər boyu müəllif Qarabağın rəmzi olan, Azərbaycanın mənəviyyat tarixində xüsusi xidmətləri olan obrazları tez-tez xatırlayır. Ayrı-ayrı adlar, ünvanlar onun həqiqətlərə güvənci kimi səslənir:

Arxada qaldı divar, öndə düşmən səngəri,
Səngərin o üzündə ruhumuzun şəhəri.
Pənah xanın, Vaqifin, Natəvanın şəhəri,
Zirvələrə köklənən tar-kamanın şəhəri.
Hər həyətdən yollara aşan qızıl gülləri,
Canlı güllər eşqinə oxuyan Bülbülləri.
Nəcəf bəyin ocağı, Əhməd bəyin yuvası,
Hacıbəyli nəslinin bitməz vətən qovğası,
Gah tarixə əl atdı, gah bu günü dindirdi,
Uvertüra üstündə milləti sevindirdi.
Həm bulaq zümzüməsi, həm okean səsiydi
Üzeyir musiqisi - ruhun möcüzəsiydi..
Söz-söhbəti dillərdə, kefi daim çağ olan,
İşi - sənət, musiqi, yazıb-yaratmaq olan,
Dağı, daşı, torpağı tarixdən bu yana sirr,
Bir qaraçı nəslinə qala bilərmi əsir?
Səsim, sözüm, musiqim bu qayanın üstündə
Məni kim endirəcək bu qayanın üstündən?
Bu səngərdə yenilsən divardan enmək olmaz
Şuşanı fəth etmədən geriyə dönmək olmaz.

Burada Pənahəli xanın, Vaqifin, Natəvanın adları çəkilir. Bu adlar təsadüfi səslənmir. Bu adlar tarixi Azərbaycan torpağı olan Qarabağda dövlət strukturu yaratmış və onu öz zamanında beynəlxalq mühitə tanıda bilmiş şəxsiyyətlərin kimliyini yada salır. İstər-istəməz əsəri oxuyan hər kəs Pənah xanın həyatına varmaq istəyir. Tarixi bilgilər yaddaşda çözələndikcə bu görkəmli sərkərdənin müxtəlif tərəflərdən Azərbaycana qıcanmış niyyətlərinin qarşısını almaq məqsədi ilə qalalar yapdığını da düşüncəsində çək-çevir edir. Böyük xanın varisi İbrahim xanın Qarabağı xilas etmək naminə arzuları, istəkləri və mübarizələri bizə əsl tarixi həqiqətlər haqqında düşünmək imkanı verir. Çoxları üçün hələ də qəribə gəlir ki, Molla Pənah Vaqifin Şuşada nə üçün əzəətli məqbərəsi qurulmuşdu? Bu uzaqgörən dövlət siyasəti yeridən ulu öndərin xidməti idi. O, Vaqifin şair obrazına güvənərək döblətçilik xidmətlərinin əvəzi olaraq bu möhtəşəm məqbərəni görk üçün ucaltmışdı. XX ısrin 20-ci illərində Qarabağın dağlıq hissəsinə iddialarını siyasi muxtariyyətlə geçrəkləşdirmiş olan daşnak kommunistlərin varislərinə xəbərdarlıq idi. Əsl həqiqət budur ki, xalqın yaratdığı ən böyük sərvət dövlətdir. Bu yolda kim çalışa bilirsə, bunun xidməti heç bir maddiyyatla ölçülmür. Bu mənada biz Vaqifin adına olan ehtiramın mahiyyətini məhz dövlətçilik baxımından qiymətləndiririk. Natəvanın, Əhməd bəyin, Bülbülün, Hacıbəylilərin adlarını misralarda işığa çevirən Sabir Rüstəmxanlı Qarabağın, Şuşanın məhz mənəvi sərvətlər xəzinəsi kimi xarakterizə edir.

Sabir Rüstəmxanlı tarixə ricətlər etsə də, bəzən yaddaşın diktəsi ilə ayrı-ayrı zamanların, hadisələrinə ekskurslarla fikrini çatdırsa da, son nəticədə yenə Azərbaycan əsgərinin yanına qayıdır. Möhtəşəm Şuşa döyüşlərinə can atan Azərbaycan əsgərinin qəhrəmanlığını ilhamlı poeziyası ilə əbədiləşdirməyə cəhd edir. Əsərin ən uğurlu məqamlarından biri də məhz şairin Azərbaycan əsgərinə həsr etdiyi ilhamlı poetik lövhələrdir:

Əsgər fürsət bilincə çiskinli gecələri
Dumanla qatılaşıb bu bələdçi qaranlıq.
Səsindən işıqlanıb şəhərin küçələri
Addımından oyanır yatan ruhlar bir anlıq.
Mürgülü keşikçilər göz açıb-qırpanacan
İçirlər nuşi-canla ölümün şərbətini.
Nə anlaya biliblər hara uçub getdi can,
Nə sözə növbə çatıb anlada heyrətini.
Göyün dumanı kimi qondu düşmən başına
Yerdən, göydən gəldiyi bilinməyən bir əsgər.
Mərmi, güllə başına dolu kimi yağsa da,
Yürüşü pozulmayan, ələnməyən bir əsgər.
Səsi çıxmazdan qabaq ağzından çıxır canı,
On ölkədən gələnin əcəli burda çatır.
Düşmən bir də ayılır, yollarında Şuşanın
Məscidə doldurduğu donuz sürüsü yatır.

Döşünə döyən ordu qanqal kimi biçilib,
Leş-leşin üstündədir, oyanmaz bu yuxudan.
Düşmən siçana dönüb, düşmən elə kiçilib
Silahla bir-birinə saldırır qorxusundan.

Gecə döyüşü, Azərbaycan əsgərinin pələng kimi düşmən üzərinə cumması, illər boyu Şuşanı tapdaq edən yağıları haqlı cəzalarına çatdırması şairi təkcə sevindirmir, həm də onun ruhuna qanad verir, varlığını səfərbər edir. Bütün qəlbi ilə, istəyi ilə sanki özü də Azərbaycan əsgərinin yanında olduğunu sözü ilə çatdırmağa çalışır.

Belə bir psixoloji məqam var; insan bütün varlığı, qəlbi ilə istədiyi yerə can atırsa, demək, onun özü də həmin məkandadır. Məhz bu mənada S.Rüstəmxanlı poetik lövhələrdə özünün sənətkar duyğulanmalarını elə canlı, elə ilhamlı bir duyğu ilə təsvir edir ki, biz həmin gecə Şuşaya hücum edən əsgərlərin arasında müəllifin özünü də görürük.

Bizə elə gəlir ki, Azərbaycan əsgəri ona görə qüdrətlidir, ona görə güclüdür ki, o, mənəvi tapınaq sahibi olan xalqının özünü yanında görür. Axı hər bir şair həm də xalqın obrazıdır. Xalqın kimliyi, gücü, qüdrəti şairin simasında özünü təlqin edir. S.Rüstəmxanlı da qəlbən, ruhən elə xalqın yanındadır, xalqla birlikdə nəfəs alır, xalqla birlikdə sevinir, gülür. Bir Azərbaycan əsgərinin qəlbinə güllə dəyirsə, bir vətən övladı şəhid olursa, bu ağrını şair öz ruhunda hiss edir.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Bəli, illər boyu düşmən içdiyi qanlardan doymamışdı, Azərbaycan körpələri gülləyə tuş gəlmişdi, qaçqınlıq, köçkünlük əzablarını yaşayan analar məhv olan övladlarını qoruya bilmirdilər. Bəli, indi həmin qanlar düşmənin gözünü tutmuşdu, varlığını əsir etmişdi, indi düşmən başa düşürdü ki, ona aman olmayacaq:

Günahsız körpələrin qanı tutub gözünü.
Hesabat verməlidir bu qiyamət günündə.
Qorxudan ağlı çaşıb, biçir özü-özünü.
Bir ordu qaçıb gedir yüz əsgərin önündən.
İntiqam səhnəsini qəsdən uzadır gecə,
Yalvarışlar dağıdır dağların yuxusunu.
Dumana qarışaraq yerə üz sürtüb keçən
Əsgər aslana dönüb qovur it ilxısını.
Dabanına tüpürüb generalı, zabiti,
Tankın, topun üstündən tullanaraq qaçırlar.
Arvad-uşaq qatili dözmür ər döyüşünə
Tülkü texnikasını qullanaraq qaçırlar.

Şuşanın dolayları dönüb şahmar ilana,
Sağ çıxanlar bu yolda ərisinlər, itsinlər.
Heç kim cəsarət edib boylanmasın dalına.
Açılıb Laçın yolu - qoy rədd olub getsinlər!

Əsərin ayrı-ayrı parçalarını təqdim etdikcə misralar sanki dil açıb danışır. Düşmən generallarının qorxaqlarını, özlərini vaxtı ilə qəhrəman kimi təsəvvür edən yırtıcıların cılızlığı üzə çıxır. Şairin dili ilə desək, onların hər biri dabanına tü-

30 illik həsrətin alınmışdı qisası,
Bir milyon göz baxırdı öz virana yurduna!

S.Rüstəmxanlı işığı tərənnüm edən şairdir, o, qaranlığa qənimdir. Zaman-zaman türkün ruhunu, varlığını işıqlandıran tarixi obrazları tərənnüm etməklə doğma xalqın ruhundakı qaranlığı söküb dağıtmağa çalışmıdır. Bununla da o, özünün şairlik missiyası ilə vətənin tarixində öz sözü, sənəti ilə kimliyini göstərə bilmişdir. İndi də şair Azərbaycan ordusu ilə birgə irəliləyir. Azərbaycan əsgərinin azad etdiyi yerlərdə torpaq özü bayram edir. Günəş daha parlaq çıxır, Ay daha nurludur. Bütün bunları S.Rüstəmxanlı obrazlı duyğulanmalarla əsərə gətirir. Onun qəlbinin, ruhunun, mənəvi saflığının bəhrəsi olaraq ərsəyə gəlmiş "Qarabağa dönüş" əsəri nəinki bu günün, həm də gələcəyin oxucusunu zövq mənbəyi olacaq.

S.Rüstəmxanlı Cəbrayılın fəxri vətəndaşı olub. Onun Cəbrayıla, Xudafərinə xüsusi sevgisi var. Şairin yaddaşında Cəbrayılla bağlı motivlər teztez sözə gəlir. Elə təqdim olunan parçalarda da bizə Araz və Cəbrayıl obrazlarının sevgi ilə, məhəbbətlə tərənnümünü görürük. Qəhrəmanların döyüş yolu elə şairin özünün də istək yoludur. Şairin özünün də tarixdən kam almaq məqamıdır.

Növbəti onuncu bölmədə şair poetik tərənnümünə Murovla, Dəlidağla başlayır. Biz elə bu parçada da yenə Xudafərin obrazı ilə qarşılaşırıq. Şair azad`olunmuş torpaqların özünün sevgi motivli duyğulanmalarını həsr etdikcə onun obrazlarının gücü qüdrəti bütün əzəməti ilə görünür. Şaiur burada azad olunmuş torpaqlara baxaraq vətənin boy

cər, Azərbaycan torpaqlarının digər ucqaları düşməndən təmizlənir. S.Rüstəmxanlı Kirs dağının, Laçın aşırımlarının adlarını çəkir. Bu əfsanə məkanlar düşmənin ölümünə qəhqəhə çəkir. Azərbaycan əsgərinə isə qucaq açır:

Şeytan üskük oynadır erməni kilsəsində,
Nə Allah sevgisi var, nə inanc hiyləsində.
Hər keçənə əl açır, hər tərəfdən pay umur,
Qonşunu sata-sata kənardan haray umur.
İnsanlıqdan danışır, ancaq xəyalında qan,
Nə keşişdən əl çəkir, nə ayrılır molladan.
Pozur bu oyunları yurdumun igidləri
Yayıldıqca dünyaya qələbə tvitləri.
Qartal kimi açılır Şuşanın qanadları,
Yorur Cıdır düzünü Qarabağın atları.
Haqq tutur öz yerini, kökü kəsilir şərin,
Dağıdır matəmini səsimiz Kəlbəcərin.
Açır öz qollarını Kirs yolu, Laçın yolu,
Düzlənir ayağımda dağların qırçın yolu.
Aşıb keçir əsgərim divarları, sədləri
Dilində nəğmə kimi qələbə tvitləri!

Ümumiyyətlə, S.Rüstəmxanlı nikbin şairdir. O hətta Qarabağı əldən verməmək üçün düşmənin beynəlxalq qüvvələrlə birləşdiyi məqamlarda belə öz çıxışlarında, düşüncələrində xalqa təlqin edirdi ki, həqiqət axıra qədər boğula bilməz. Son nəticədə insanlar öz haqlarına sahib olacaqlar, yəni haqlı olan qalib gələcək. Elə ona görə də Qarabağ dönüş yolunda uğurları tərənnüm etdikcə haqq işimizin qalib gəldiyinə ianmının necə çiçək açdığının, necə üzə güldüyünü də yada salır.

Onu da demək lazımdır ki, S.Rüstəmxanlının

# TANRI İŞIĞIMIZIN "QARABAĞA DÖNÜŞ"Ü

## *Ordumuzun 44 günlük savaşdakı qələbəsi torpaq üzərində yazılmış qəhrəmanlıq kitabıdır.*

pürüb qaçmağa cəhd edir. Silahlar tökülüb qalır, yaralılar meydanda inildəyir, ölənlərin cəsədləri yolların kənarındadır. Canı olan, qaçmaq üçün imkanı olan hər bir düşmən döyüşçüsü rəzilliklə yerlə sürünür, özünü yaralılığa vurur, yalvarır. Əsir alınmağı canını qurtarmaq vasitəsi hesab edir.

Şair həmin mənzərənin psixoloji tərəflərini çox dəqiqliklə təsvir edir. Hər bir düşmən əsgəri gözlərini üfüqə zilləyib səhərin açılmasını intizarla gözləyir. Onlar hələ də anlaya bilmirlər, ölüm onları necə, haradan yaxalayıb. Şairin mənəvi təsvirləri gözümüzü oxşayır. O, Şuşanın dolaylarını qıvrılmış ilana bənzədir. Yəni düşmən bu dolaylarla qaçmağa çalışsa da, yenə ölümdən xilas ola bilmir. Yollarımız qisas ilanlarına çevrilib onların əlinə-ayağına dolaşır. Varlığını əsir alır, bir sözlə, Azərbaycan əsgəri artıq vəziyyətin əsl hakimi kimi görünür. Bir vaxt Laçın yolunu zəbt etmiş düşmən necə sevinirdisə, indi həmin sevincin tərsi olaraq Azərbaycan əsgəri Laçın yoluna qürurla baxır. Beləliklə, Şuşa düşmənin ölüm məkanına çevrilir. Düşmən özünə lənət oxuyur özgə torpaqlarına ayaq basdığı üçün. Ermənistana övladlarını müharibəyə göndərmiş olan, vaxtı ilə gözlərini qan örtmüş erməni atalar, analar indi müharibə səbəbkarlarını lənətləyir, Şuşanın, Qarabağın Azərbaycan torpağı olduğunu deyirlər və öz qaniçənlərini ona görə lənətləyirlər ki, özgə torpaqlarına tamah salırlar:

Şuşanın gecəsindən yad nəfəsi hayların
Sökülüb atılınca astaca sökülür dan.
İşığı qayıdıbdır Günəşlərin, Ayların
Müqəddəs bayrağımdır gecəni aydınladan!...
Bu gün türkün bayramı, işğalçının yasıydı,
Allahın hökmü ilə yazılmışdı bu yazı,
Onun "bəla" dediyi Allahın bəlasıydı.
Xocalı qırğınının alınmışdı qisası.
Ordum Cəbrayıldadır, Arazdan bir az bəri,
Arada sıx meşələr, neçə cəbhə xətti var.
Düşmən hələ bilmir ki, savaşın dahiləri
Adsız qəhrəmanlarım, Yaşma igidləri var.

Allahın hökmü ilə yazılmışdı bu yazı,
Millətimin zilləti axır çatmışdı sona.

ucalığını, əzəmətini tərənnüm etməkdən xüsusi zövq alır:

Murovun, Dəlidağın üstündən çəkilir çən,
Qəddini yavaş-yavaş dikəldir yorğun Vətən.
İntizarı dağılır yad olmuş sahillərin
Süsləndikcə üçrəngli bayraqla Xudafərin.
Otuz il ümid verib bizi susduran susur,
Ümidini qırdıqca Azərbaycan ordusu.
Bayram havası gəzir şəhərləri, kəndləri
Paylandıqca hər axşam qələbə tvitləri.
Ax dünya, qəddar dünya, əsiridir yalanın,
Başını əzib keçmir bu zəhərli ilanın,
Köhnə Səlib havası dolaşdıqca başında
Neçə ölkə səf tutur yenə din savaşında.
Tanrı da əsir düşüb siyasətə, sirr deyil,
O özü bir olsa da, elçiləri bir deyil.
Şükür, yıxıb dağıdır bu çürüyən bütləri
Qanımdan qanad taxan qələbə tvitləri.

Şair burada köhnə səlib havası ifadəsini işlədib. Zənnimcə, bu da təsadüfi deyil. Bu ifadənin mətnə gətirilməsinin əsas səbəbini anlamaq üçün biz bəzi məqamlara diqqət etməliyik. Bunun üçün belə bir suala cavab verməliyik: necə oldu ki, bir ovuc Ermənistan tarixən öz qüdrətini salnaməyə yazmış olan Azərbaycan torpaqlarını hücuma cəsarət göstərdi. Əlbəttə, bu, dünyanın ikili standarları ilə bağlıdır. Dünyanın bir çox güc mərkəzləri Ermənistanı məhz ona görə müdafiə edirdi ki, onlar xristiandırlar. Vaxtı ilə Papa, kilsə Avropa barbarlarını səlib yürüşünə həvəsləndirmişdi. Onları şərqə - guya cənnət torpalqarını azad etməyə göndərmişdi. İndi belə bir anti insani təbliğatı xristian şovinistlərin niyyətində də hiss edirik.

Erməni kilsəsi də beynəlxalq din mərkəzlərindən aldıqları təlimatlara uyğun olaraq faşist xislətli erməni ordusunu Qarabağın üzərinə göndərmişdi. Onlar elə düşünürdülər ki, dünyanın güc mərkəzləri bu şirnikləndirmələrin arxasında dayanacaq, hər vaxt onları müdafiə edəcək. Amma necə oldu? İş bərkə düşəndə Ermənistan meydanda tək qaldı. Tarixi həqiqəi isə Azərbaycan ordusu bərpa etdi.

S.Rüstəmxanlı poetik vüsəti ilə insanların taleyini oyuna çevirənlərin acınacaqlı durumunu Şuşa döyüşlərinin timsalında göstərir. Beləliklə, Kəlbə-

əsərindəki qəhrəmanların ümumi bir adı var. Bu, qəhrəman Azərbaycan əsgəridir, bu əsgərə rəhbərlik edən güc isə Ali Baş Komandandan tutmuş ən kiçik zabitə qədər vəhdətdə, birlikdə təsəvvür olunur. Komandirin "Vur, əsgər" komandası Ali Baş Komandanın özünün səsi kimi eşidilir. Bu mənada biz elə həmin əmrin səsində şairin özünün də hisslərlə, həyəcanlarla süslənmiş səsini eşidirik:

Bu bizim haqq işimiz, ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız,
Vur, əsgərim, vur! - deyə əmr eləyir komandan
Qoy bir də yurdumuzda tökülməsin nahaq qan.
Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!..
Qovur öz yuvasına quduzlaşan itləri!
Ali baş komandanın qələbə tvitləri!

Maraqlıdır ki, şair bütün müharibə dövrü, bütün 44 günlük müddət ərzində addım-addım Azərbaycan əsgərini izləyib. Sanki o, Azərbaycan əsgərinin arxasınca yox, elə lap önündə gedib. O, Azərbaycan əsgərinə bələdçilik edib. Onu keçilməzliklərdən, sıldırım qayalardan keçirib. Maraqlıdır ki, şair Azərbaycan əsgərini izlədiyi kimi, Ali Baş Komandanın özünü də izləyir. Onun bütün tvitlərini, çıxışlarının məğzini hava kimi, su kimi içir. Yaxşı bilir ki, tarix məhz Ali Baş Komandanın istəkləri, qətiyyəti, siyasi iradəsi ilə yol gedir. Bu yolu Ali Baş Komandan özü seçib. Onun qətiyyəti, siyasi iradəsi, bütün məqamlarda düşmən qüvvələrin inadlarını qırır. Onların haqsız olduqlarını özünün dəmir məntiqi ilə sübut edir. Xarici ölkələrdən gəlmiş jurnalistlər, ayrı-ayrı siyasi xadimlər Ali Baş Komandanı dinlədikcə əsl həqiqətləri tam dərk edə bilirlər. Onların ən kəskin suallarını belə Ali Baş Komandan xüsusi sərrastlıqla cavablayır. Sanki cəbhədə onun dəmir yumruğu işlədiyi kimi diplomatik savaşda da onun dəmir məntiqi özünü diktə edir. Bu məntiqin nəyə qadir olduğunu hər bir Azərbaycanlı 44 günlük savaş dövründə ekranda üzəbüz, sanki xalqın özü ilə danışan, Prezidentin fikirlərindən məramlarından oxuyuruq.

*(Davamı 12-ci səhifədə)*

*(Əvvəli 11-ci səhiyədə)*

"Qarabağa dönüş" poemasının 11-ci hissəsində şair lirik-psixoloji duyğularla qələbədən sonrakı Qarabağ arzularını dilə gətirir. O, çox arzulayır ki, tezliklə Qarabağ torpaqları minalardan təmizlənsin, insan həyatı üçün təhlükəsiz əraziyə çevrilsin. Özü də sərbəst, azad şəkildə işğaldan azad olunmuş əraziləri öz gəncliyində gəzdiyi kimi əmin-amanlıqla gəzib dolaşsınş Tarixi abidələri birər-birər ziyarət etsin. Maraqlıdır ki, müəllif bu duyğulanmalarında, düşüncələrində hər cığırla, hər kolla, hər bir qaya ilə sanki canlı olaraq üzbəüz dayanıb danışır, onların halını, əhvalını soruşur. Hətta həsrətdən cadar-cadar olmuş cığırlardan üzr istəyir: "Bağışlayın, sizi çox gözlətmişik" deyir. Biz bu üzrxahlığa bütün səmimiyyəti ilə inanırıq. Çünki şairin özü bu məqamı otuz il gözləmişdi. O inanır ki, dilsiz olsa da, cığırlar, qayalar onu yaxşı başa düşür və tərəflər burada bir-birini bütün təfərrüatı ilə anlayırlar.

Minadan təmizlənsə, gedərdik Qarabağa,
Bəlkə, tövbə etməyə, bəlkə, üzr istəməyə,
Cığırları oyadıb, kəmənd atıb hər dağa,
"Sizi çox gözlətmişik, bağışlayın!" deməyə.
Düşünmə daş cansızdır, öz ömrü var daşını da,
Soruşsan doğma dillə güzgü tutar min ilə.
Ancaq ölçü ayrıdır onun daş yaddaşında,
Onun vaxt sayğacının adı bilinmir hələ...

Hər qaya milyon ilin harddiskidir elə bil,
Göyün bütün səsləri yazılıbdır o başdan.
Ulduzların dili də, bəlkə, ona yad deyil,
Bəlkə də, qopub qalır bir uzaylı uçuşdan.

S.Rüstəmxanlı bütün poetik gücü ilə salnamələtümləri var. İndidən istisuyun üstündə qurulmuş saz-söz məclislərinin yığnağında təsəvvür edir özünü. Şübhəsiz, bu məqamlarda o, Səməd Vurğun və Aşıq Şəmşir görüşlərini də xatırlayıb. Elə bu duyğulanmaların təsiri altında bütün varlığı ilə sevgi nəğməsi oxuyur. Yurda, vətənə, torpağa sevgi nəğməsi.

İndi bu yerlər Azərbaycan ordusunun qələbə kitabını daş sinəsinə yığıb əbədi olaraq saxlayacaq. Şair özü xəyalən bu daş kitabələri oxuyur, elə əslində onun yazdıqları bu daş kitabələr üzərinə yazılanlardır. Biz də məhz ona görə bu duyğulanmaları sonsuz istəklə varlığımıza, ruhumuza çəkirik ki, bizim də könlümüzcədir. Sanki biz özümüzü də şairlər birgə Kəlbəcərdə, İstisuda daş kitabələr önündə, saz-söz yığnağında hiss edirik; qəlbimiz riqqətə gəlir. Bütün varlığımızla biz də həmin günə, həmin zamana, həmin yerə can atırıq.

Əlbəttə, çox inanırıq ki, bir vaxt Kəlbəcərdə qurulmuş saz-söz yığnaqları yenidən bərpa olunacaq. İnsanlar qəlbən, ruhən sazla, sözlə baş-başa olacaq. Yəqin ki, aşıqlar da, şairlər də bu yerləri düşməndən azad etmiş əsgərlərimizi böyük sevgi ilə tərənnüm edəcəklər. Hər kəsin ruhunda oğullarının xatirəsinə sevgi nəğmələri yazılacaq. Bu nəğmələr daşa yazılmış kimi heç vaxt xalqın yaddaşından silinməyəcək. Əslində daş kitabə elə özü yaddaş kitabıdır. Şair məhz bu kitaba yazılanların heç vaxt pozulmayacağına inamını ifadə edir:

Bu daş kitabələrdə dünya fərqli, vaxt ayrı,
Daşların güzgüsündə bir də boylan elinə,
Gör hansı gözəlliklə insan açar axtarır
Buludların şəklinə, ulduzların dilinə.
Görək adsız bulaqlar kimi qonaq gətirib
Şamil qardaşımızın Kürd ovşarı səslənsin.

Sən demə, Qarabağdan keçirmiş Təbriz yolu!-
Millət hökmünü verdi bu savaş meydanında.

Qəlbi riqqətə gətirən duyğulardır. Meydan hərəkatında səslənmiş ideyalar, fikirlər S.Rüstəmxanlının "Qarabağa dönüş" poemasının məramı kimi yaddaşa gəlir. Doğrudur, bir vaxt deyilmişdi ki, Qarabağın yolu Təbrizdən keçir. Amma Azərbaycan ordusunun gücü, Azərbaycan dövlətinin dəmir yumruğu, Ali Baş Komandanın siyasi iradəsi göstərdi ki, bu xalq öz hökmünü Qarabağın bütün varlığı diktə edə bilir, buna gücü çatır. İndi Qarabağdan. Xudafərindən keçən yol üzü Təbrizə doğru yönəlikdir. Bütün qəlbimizlə, ruhumuzla bu duyğulara şərik oluruq.

Poemanın 12-ci hissəsində şair milləti sevgi ilə qutlayır. Ən xoş müjdəsini millətə ünvanlayır. Axı doğrudan da, millət sıxıntıdan çıxa bilmişdi. Amma buna baxmayaraq, yenə də erməni qisasçıları özlərinə havadar axtarmaqdadır. Amma çətin ki, nəyəsə nail ola bilələr. S.Rüstəmxanlının "Qarabağa dönüş" poemasının bu hissəsində biz qisasçıların əlacsız, ümidsiz, yazıq üz görkəmləri ilə qarşılaşırıq. Əvəzində isə millətimizin qürurunu, gücünü bütün varlığı ilə hiss edirik:

Gözün aydın, Millətim, qurtardın sıxıntıdan
Daha hədyan maşını üstünə gələ bilmir.
Ancaq erməni pulu dolaşdıqca ortada
Dini, irqi pul olan yatıb dincələ bilmir...
Dünya boynunu büküb böyüklərin önündə
Çarəsiz, əli bağlı sonunu gözləyərkən.
Ayılara güvənən tülkünü boğmağınla
Məzlumların könlünə sən oldun ümid əkən.

O əllər ki uzandı sənə çətin günündə
Qardaşların əlidir, qızıla tutulmalı.

# TANRI İŞIĞIMIZIN "QARABAĞA DÖNÜŞ"Ü

## *Ordumuzun 44 günlük savaşdakı qələbəsi torpaq üzərində yazılmış qəhrəmanlıq kitabıdır.*

rin bir gün yaddaşdan itə biləcəyinə inansa da, torpaq üzərindəki qələbə kitabının heç vaxt itməyəcəyinə, hər vaxt canlı olacağına, diri qalacağına inanır. Şair bəzi məqamlarda yırtıcıların, vəhşilərin, qəddarların insan mənəviyyatına hücumlarını yada salır. Yandırılan kitablar obrazı təsadüfi olaraq xatırlanmır. Bir vaxt müstəqil Azərbaycan hökümətinə təcavüz edən fars şovinizmi Təbrizin mərkəzində Azərbaycanın milli ruhunu təbliğ edən kitabları qəddarlıqla yandırmışdı. Hətta ədəbiyyat tariximizdə ölməz Səməd Vurğunun "Yandırılan kitablar" adlı məşhur şeiri də xalqların ruhunu sarsıtmağa yönəlik olan şovinizmə ittiham kimi yaşamaqdadır.

Sabir Rüstəmxanlı bütün mənəvi potensialı ilə torpaq üzərində yazılmış qələbə kitabını təqdim edir. O, inanır ki, torpağı azad etmiş qəhrəman özünün döyüş salnaməsini torpağın üzərində elə yazıb ki, o heç vaxt, heç bir zaman pozulmayacaq. İndi şair ruh etobanı ilə əmin-arxayındır ki, nə vaxt istəsə, dağlara səyahət edəcək, gəncliyində gördüyü yerləri birər-birər gəzəcək. Bu da ona imkan verəcək ki, hələ qəlbinin sözünü, ruhunun diktəsini gələcək nəsillərə daha ilhamla yazıb ərməğan edəcək:

Kağızlar yandırılır, papiruslar çürüyür,
Ancaq torpaq kitabın pozulmur yazıları.
Ağac kimi, ot kimi bu dağları bürüyür
Nəslimizin min illər yaşayan arzuları.
İndi otlar saralıb, evimiz külə dönüb,
Ölüm nəfəsi əsib hər cığırdan, hər izdən.
Biz də dirilik kimi dizin-dizin sürünüb,
Ayrılaq evimizdə qacqın keçmişimizdən.
Yaz gələ, ağac kimi çiçəklənə həvəsim,
Çatılan köçlərlə bir qayıdam Dəlidağa,
Bu şəhər tünlüyündə sıxılanda nəfəsim
Loğman dağlar yenidən yol açar yaşamağa.

İstisuyun başında susmaz sazın kafesi -
Yanıq divarlarda da bir ilham rüzgarı var.
Ala göllər üstündə coşar cıdır həvəsim,
At uçar, daşlardan da göylər məni çağırar.

Şairin arzuları nə qədər gözəldir, duyğuludur, özü nə qədər inamlıdır. Şəhərin tünlük havasından tıncıxanda onun üçün qucaq aça biləcək Kəlbəcərin, Laçının, Cəbrayılın laylaqları onun böyük sevgi ilə qarşılayacaq. Şairin qəlbində duğuların tələ

Bu dağlar əzəl gündən mərd oğullar qucağı,
Qoy yenə hər obada aşıqları bəslənsin.
Dağların da ruhu var - o, bizim ruhumuzdur,
O, insanın eşqidir, pirə, ocağa dönən.
Altaydan Qarabağa nizami ordumuzdur,
Qara dumanlarda da yenə uca görünəni

"Yar-yarını istəsəl" - dağlardan bir qız səsi,
Əbədi bir gəncliklə sevgisini oxuyar.
Yenə hər gün Turşsuda bir Koroğlu nərəsi,
Yenə qızlar xalçada Nigar eşqi toxuyar.

Sözün həqiqi mənasında bu parçalardakı şair ürəyinin çırpıntılarını, özü də canlı titrəyişlərini duymamaq olmur. Bu misraların hər biri sevgi dolu ürəklə nəğmə deyən gənclərin səsini düşüncəmizə gətirir. Nəğmənin xalı rəngi, dağların çiçək ətri, sevgilərin bihuşedici duyğulanmaları S.Rüstəmxanlının ecazkar qələmi ilə şövqlə tərənnüm olunur. Şairin xəyalı bir anda o qədər qanadlanır ki, o, bir Koroğlu hayqırışı ilə Qafdan Altaylara doğru uçur. Onun gözlərinin önündə sanki Turan xalısı toxunur. Bu xalının S.Rüstəmxanlının təbirincə desək, Nigar eşqi ilə ilmələnməsi bizi də həyata səsləyir.

Sabir Rüstəmxanlının yaradıcılığında həyat sevgisi əsas xətt kimi tərənnüm olunur. Şair insanlara təlqin edir ki, həyatı sevgi ilə yaşamaq daha gözəldir. Bu sevgi vətənlə bağlananda daha uca olur. S.Rüstəmxanlı öz duyğulanmaları ilə Turan boyu uçarkən Savalanın zirvəsindən sanki tanrı dərgahına uçur. Ağrıdan Altaylara keçir, bir sözlə, hər bir misranı şövqlə oxuyur, şairin səsini ruhumuzla dinləyirik.

Zirvələrə qalxınca gücümüz oyanacaq
Bu güc tarixdən gələn ulu Turan gücüdür!
Savalandan Tanrıya, Ağrıdan Altaylara
Min illərlə var olan bir qəhrəman gücüdür.
Süfrəmdən pay umanlar bir deyil, iki deyil,
Elə ki qarnı doyur unudur keçmişini.
Bu dağlar öz suyundan yolçuya da pay verər,
Harama əl uzatsa sındıracaq dişini.

Yolu Təbrizdən keçir Qarabağın! - demişdi
Bir ilkə qəhrəmanı, çarəsizlik anında.

Üzdə "bəradər" deyib, düşmənə dayaq olan
Dinimə ləkə olan şeytandan qurtulmalı!

Zənnimcə, poetik düşüncələrin məramı, məqsədi o qədər aydındır ki, burada şərhə də ehtiyac görünmür. Çünki elə ikiüzlü şeytanlar var ki, onlar uzun illər din qardaşlığı adı ilə altdan-altdan başqa siyasət yeridiblər. Bu gün də minlərlə insanın qanına əli batmış cəlladları qardaş deyə qucaqlayanlar var. Şair təkcə öz millətimizi ayıq olmağa çağırmır, həm də bütövlükdə insanlığı ayıqlığa çağırır, yoxsa başqa cür həqiqətlər öz mənzilinə yetə bilməz.

Poemanın 13-cü hissəsində şair Azərbaycana qardaşlıq münasibəti bəsləyən qüdrətli dövlətlərin sevgisini, məhəbbətini öyür.

İndi dünya sürətlə qütblənir. Dünyanın belə sürətlə qütbləşməsi göstərir ki, biz də öz məramımızda sabit qədəm olaq. Qan qardaşlarımızla birliyimizi təmin edək. Pakistanla, Turan dünyası ilə, Türkiyə ilə doğmalıq münasibətlərimiz həm siyasi, həm hərbi birliyə çevrilməlidir. Kimsəyə sirr deyil ki, Türkiyə ilə biz bir millət, iki dövlətik. 44 günlük savaş boyunca Türkiyə Azərbaycana mənəvi dəstəyini əsirgəmədi. Dünyanın güc mərkəzlərinə anlatdı ki, Azərbaycanın haqq savaşına kimsə qarşı dura bilməz. Eləcə də, qüdrətli Pakistan hər an Azərbaycana mənəvi dəstəyini əsirgəmədi. Məhz bu məramları nəzərdə tutaraq yazır:

Ey qoca Azərbaycan! Haqq nazilir, üzülmür,
Sənin zəfər gününə yazıram yeni dastan.
İki bitməz nəğməsi olmalı bu dastanın:
Birincisi Türkiyə, ikincisi Pakistan.
Ədalətdir yolumuz! Bunu Allah gördü,
Ədalətə söykənən verməz namərdlərə can!
Bu namus savaşında səsinə səs verirdi
Ankaradan Türkiyə, Kəraçidən Pakistan!

Üç bayraq dalğalanır üç qardaşın şəninə.
Silir göz yaşlarımı iki əl, çıxım yasdan.
Bir,dua da artacaq duamın üzərinə,
Alqış sənə Türkiyə! Alqış sənə Pakistan!

*(Davamı 13-cü səhifədə)*

# TANRI İŞIĞIMIZIN "QARABAĞA DÖNÜŞ"Ü

## *Ordumuzun 44 günlük savaşdakı qələbəsi torpaq üzərində yazılmış qəhrəmanlıq kitabıdır.*

*(Əvvəli 12-ci səhifədə)*

Azərbaycan bütün qəlbi ilə, varlığı ilə Türkiyə və Pakistanla qardaşlıq andına sadiq olduğunu hər bir dönəmdə bəyan edir. S.Rüstəmxanlı təkcə şair deyil. O həm də görkəmli ictimai-siyasi xadimdir. Yaxşı bilir ki, düyanın indiki qütbləşmə zamanında təklənmə çox təhlükəlidir. Ona görə də Azərbaycanın Turan birliyindəki yerini təqdir edir. Azərbaycanın Turan sevgisinə sözü ilə çələng hörür.

Poemanın 14-cü hissəsində düşüncələri ilə yenidən Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu dövrə qayıdır. O, həmin dövrün qəhrəmanlıqlarını yada salır. Ayrı-ayrı güc mərkəzləri Azərbaycanı parçalamaq, ümumiyyətlə, Azərbaycan adlı dövləti tanımamaq məqsədi güdürdülər. Həmin dövrdə Nuru paşanın komandanlığı ilə türk ordusu Azərbaycana gəldi. Azərbaycan, Bakı düşmənlərdən təmizləndi. Daşnak qəddarlığının ilk üzü salnaməyə köçürüldü və müstəqil Azərbaycan dövləti yaradıldı. Bakının, Şuşanın, Zəngəzurun, Qarabağın, Naxçıvanın düşməndən azad olunması üçün millətin birliyi təmin edildi. Azərbaycan öz taleyinin sahibi olmuşdu. Şair bu tarixi dönəmləri çox böyük sevgi ilə vəsf edir. Bu məqamlarda onun poetik düşüncələrinin qəhrəmanı şəriksiz olaraq Nuru paşadır:

Bir vaxt Nuru paşa da gəldi qardaş hayına,
Dirək oldu yurdumda min könül sarayına,
Ocağımız küllənib, ümidimiz sönəndə,
Bakı, Şuşa, Zəngəzur qan gölünə dönəndə.
Tiflisdən, Qarabağdan, Naxçıvandan keçmişdi.
Neçə gizli tələdən, neçə qandan keçmişdi.
Osmanlı zor durumda, qardaşın halı da pis,
Bir yanda rus daşnakla, bir tərəfdə ingilis.
Bütün oyunlar bitib, bütün yollar tutulmuş,
Bakı bunların olub, millətim unudulmuş.
Onda da öyünürdü düşmən silah-sursatla,
Bakı dəmir zirehdə, paşam tələsir atla,
Ancaq atı uçuran belindəki qeyrətdi,
Düşməni diz çökdürən gənc paşaya heyrətdi...
Aradan yüz il keçib, dünya köhnə dəyirman,
Üyüdülmək növbəsi - sırada biz, müsəlman!

Doğrudur, düşmən yatmayıb. Ən müxtəlif yollarla sarsılmaz qardaşlıq əlaqələri quran Turan ölkələrinin arasına nifaq salmağa çalışır. Ancaq onlar unudurlar ki, Azərbaycanın görkəmli ideoloqlarının dediyi kimi ucalan bayrağımız özünün güc, qüdrət zirvəsindən heç vaxt enməyəcək. Çünki bizim xalqımız əslində özünü yox, ədaləti müdafiə edir. Çünki özü bütövlükdə ədalətin tərəfindədir. Biz haqqı qorumağa səfərbər olunmuşuq. Şair də elə buna görə tarixcə müraciət edir, yada salır ki, biz Nuru paşanın qədrini bilməliyik, onu milli qəhrəman kimi yaddaşımızda yaşatmalıyıq. Eləcə S.Rüstəmxanlı əsəri oyu tarixi ricətlərə təsadüfi qayıtmır. O, yaddaş üçün gərəkli olanları sözə gətirir. İstəyir ki, yazdıqları tarixin yaddaş kitabı kimi həmişə göz önündə olsun.

Sırada biz - Ədalət! Haqq deyib, haqq istəyən,
Öz halal torpağına sahib çıxmaq istəyəni
Zaman deyir: dağının, daşının qədrini bil,
O köməyə tələsən Paşanın qədrini bil!
Kökün, gövdən bir olub, budağın da bir olsun,
Qaldır bu sərhədləri, torpağın da bir olsun!
Mən bu yolun ağıyam, Ağıyam, çırağıyam,
Sür, gözünə nur gəsin, Türküstan torpağıyam!
Torpağın bir olanda gözünə nur gələcək!
Sənin ədalətində millətlər dincələcək!
Turan deyib qorxurlar, sən də böyü, Turan ol!
Bu nifrət əkənlərin ümidini qıran ol!..

Şairin duyğulanmaları poetik vüsəti ilə kifayət qədər qanadlıdır. Biz Bakının, Azərbaycanın həmin illərdəki dərdlərini hiss edə bilirik, duya bilirik. Doğrudur, güc mərkəzləri üçün ədalət həmişə nisbidir. Sonralar Azərbaycanın müstəqilliyi müdafiə oluna bilmədi. Bolşeviklər, demək olar ki, bütün gücləri ilə 11-ci ordunu cəmləyib cənubi Qafqaza göndərdilər. Həmin dövrdə tarixi şərait elə idi ki, türk-Turan dünyasının özü də çox çətin duruma düşmüşdü.

İndinin özündə də Turan deyəndə dünyanın güc mərkəzləri - Avropanın düşüncə meydanları titrəyir. Ancaq geriyə yol yoxdur. Azərbaycanın yeni zamanı ancaq Turan birliyi ilə yeni düşüncə, yeni siyasi iradə qoruya bilər. R.T.Ərdoğan və İ.Əliyev qardaşlığı göstərir ki, ulu öndərin ideyaları get-gedə bütün Turan dünyasına hakim olacaq. Bizim varlığımızın əsası sözün həqiqi mənasında birliyimizdən keçir.

Əsərin 15-ci hissəsini müəllif maraqlı epiqrafla başlayır: "Sevil Nuru ilə yolüstü söhbət : Və yu Qələbədən 25 il öncə yazılmış nəticə". Zənnimcə, elə bu qeydlərin özü kifayət qədər informasiya verir. Müəllif gənc yazıçı həmkarı ilə söhbətinin məğzini əsərin bu hissəsində diqqətə çəkir. Və həm də onu ayrıca yaddaşa gətirir ki, o, Qarabağ taleyimizlə bağlı düşüncələrinin əsas nəticəsini hələ 25 il əvvəldən bütün aydınlığı ilə görə bilirdi. Doğrudur, bu hissələrdə biz 25 il əvvəlki düşüncələrin həsrətli ovqat notların hiss edirik. Şair yanğı ilə, həsrətlə ayrıldığı yerlərin hansı dadda, hansı tamda, hansı görkəmdə olduğunu gözlərinin önünə gətirmək istəyir. Bilmir, amma sanki qəlbinə müraciət edrək o günlərəcən yaşamağın mümkün olacağını həmkarından soruşur:

...Görən yenə Şuşanın bal dadırmı havası,
Tərtərin nəğməsinə görən kim qulaq asır,
El gedəndən Həkəri necə boğur hirsini,
Yazılı daşlarımız kimə verir dərsini?
Bizləri unutdumu görən Göyçə, Zəngəzur
Təbriz niyə danışmır, Ərdəbil niyə susur?
Bu ehkam dağılanda qatmazlar ki aranı
Nə qədər vaxt gərəkdir sağaldaq bu yaranı?
...Hər sözün başı sual, hər sualın sonu qəm,
Bu qəmlərin ardında qəmsiz səhər görürəm.
Deyirsən, bitəcəkmi bu ağrılar?
Deyirəm, hə, bitəcək!
Ömrümüz o illərə yetəcəkmi?
- Yetəcək!

Sərrastdır. Sualla olsa da, cavab aydındır. Burada bir inam var. O inam diktə edir ki, bəli, biz o günlərə qədər yaşayacağıq. O günləri görməyə borcluyuq. İnamımız bizi aparacaq həmin günlərəcən. Şair çox böyük inamla bildirir ki, Azərbaycan öz gücü ilə, öz qüdrəti ilə düşmənlərin burnunu Şuşada ovacaq. Ermoni milliyyətçiliyi, ermoni vandalizmi haradan güc, qüvvə alsa da, türkün qürurunu qıra bilməyəcək. Aydın məsələdir, tarix göstərdi ki, qərbin fitvası dünən də var idi, bu gün də var. Fransa öz qüvvələrini Ermənistanda yerləşdirməyə çalışır, Amerika erməni ordusuna təlimlər keçir. Bütün bunların sonunda Azərbaycana qarşı yeni qüvvələrin səfərbər olunması açıq-aşkar duyulur. Ancaq Azərbaycan ordusu qətiyyətlidir. O, düşmənə öz həddini göstərmək gücündədir .Bu qətiyyət dünən də var idi, bu gün də var. 44 günlük qələbə savaşı bu qətiyyətin nəyə qadir olduğunu göstərdi:

Ovacağıq Şuşada düşmənlərin burnunu,
Erməni kimdir türkün sındıra qürurunu?
Bu da Qərbin fitvası, bu da bir sirdi olub,
Yoxsa o bizi yensin?
Hansı əsrdə olub?
Bu köç geri dönəcək səfərdən dönən kimi,
Dağlar da dikələcək ruhumuz dinən kimi!
Qurulacaq Qarabağ əvvəlkindən daha şən
Bərdədən Göyçəyəcən.
Sağalacaq yaralar, olsa nə qədər dərin,
Belini dikəldəcək qocaman Xudafərin!

Şair əsər boyu Xudafərini çox böyük inamla xatırladır. Özü də təkcə Xudafərini yox, tarixi Azərbaycan torpaqlarındakı qalmış yaddaşımızı yenidən oyatmağa qərarlıdır. Göyçəyə qədər, bütün Qərbi Azərbaycan ərazilərinin hamısında yaşayan nişangahlar, tarixi abidələr bizim o yerlərdə tarixi haqqımızın olduğuna şübhə yeri qoymur. Xalq bütün varlığı ilə inanır ki, necə ki, Ağdamı, Kəlbəcəri azad edib, Alagöllərdən keçib, eləcə də, Zəngəzur yolundan keçəcək. Qərbi Azərbaycan aşıqlarının sazında qəmli havaların yerini "Qəhrəmanı", "Cəngi" tutacaq. Şair tez-tez öz düşüncələrini bayatı ahənginə salır. Sözünü xalqın ruhuna bələyərək misralara çevirir:

Ağdamın ağ damları,
Qəzəlgül hasarları,
Kəlbəcər yaylaqları,
Alagöllər üstündə sazın coşan çağları
Hər bulağın üstündə uzanan məclisimiz,
İşıqlı dağınacan işıq saçan izimiz.
Türbələr, qurbangahlar,
Didərgin ruhlarımız
Sərvətimiz, varımız,
On çadırlı obadan min evli kəndlərəcən,
Kağız üstə yarımçıq çəkilmiş bəndlərəcən,
İlxıların atından, sürünün itinəcən
Həkəri balığından,
Murovun südünəcən
Hər şey dönəcək geri,
Tutacaq öz yerini!

Göründüyü kimi S.Rüstəmxanlı türbələr, ziyarətgahlar dedikdə xalqın daş kitabını xatırladır. Xalqın əsas güc mərkəzi kimi bu tarixi abidələri əsas mənəvi istinadgah hesab edir. Biz qəlbimizlə, ruhumuzla şairin bu bayatı ütsündə köklənmiş duyğulanmları ilə birgə nəfəs alırıq. S.Rüstəmxanlı sözə sevdalı şairdir. Ayrı-ayrl məqamlarında ilham köhləni sərhədləri aşsa da, yenidən lirik duyğularla məqsədinə, məramına dönür. Hər şey onun mənəvi dünyasında məna kəsb edir, xüsusi mahiyyət daşıyır. İnanır ki, bir vaxt gələcək hətta özünün yarımçıq qalmış şeirlərini də yazıb bitirə biləcək. Axı yuxarıda dedik ki, bu düşüncələri o, 25 il əvvəl yaşamışdı. Demək, onun qənaətləri indi həqiqətə çevrilib.

Şair inanırdı ki, bir gün gələcək bütün qəmlər, kədərlər hamısı unudulacaq, yaddan çıxacaq, xalq ruhən diriləcək. Şikəstənin qəm notları öz yerini qələbə notlarına verəcək:

Elimiz unudacaq bu sınıq günlərini.
Dağlara ruh gələcək Şikəstədən, Muğamdan
Düşmənlərin əlini üzəcəyəm yaxamdan.
Millətim dikələcək qırx milyon, əlli milyon.
Bu birlik mahnısını qitələr eşidəcək,
Gəncədən Naxçıvana, Naxçıvandan Qəzvinə
Əngəlsiz, mancəsiz yollarım çəkiləcək!
Sümüyə dirənibsə əsarət bıçaqları
Qapımın ağzındadır, demək, xoşbəxt çağlarım.
Tarix qatarlarını saxlamaz öz yolundan
Kiminsə hədələri, kiminsə ölcəyi.
Azərbaycan içindən doğulur, diqqətlə bax,
Xalqın ruhu bütövsə bütövdür gələcəyi!

Şairin inamı artıq çiçək açıb. Onun arzuladığı gələcək, özü demiş qapının ağzındadır. Bir az da dəqiqləşdirsək, o gələcək artıq şairin əlini sıxmışdı. Onun özünü sağlam düşüncələrinə görə bağrına basıb hərarətlə öpmüşdü. S.Rüstəmxanlı sanki Şuşaya dönən köçü görürmüş kimi yazıb. Laçın bütün gözəlliyi ilə düşmənə gözdağı olub. Kəlbəcər sürətlə bərpa olunub. Əhali Füzuliyə qayıdıb. Tezliklə, Cəbrayıl dərindən nəfəs alacaq, Xudafərin qonaqlarını hərarətlə qarşılayacaq. Bütün bunlar S.Rüstəmxanlı sevgisinin inamı kimi tarixi həqiqətə çevrilir. Şair son misralarında yenidən günümüzə qayıdır. Xatırladır ki, 25 il əvvəl dedikləri çətin zamanların sınağından keçmiş düşüncələrdir. Onda hələ vətən düşmən əlində idi. Qarabağ yağıların caynağında, tapdağı altında idi.

Bu sözlər yazılanda hələ keçən əsrdi
Hələ Qarabağımız Hayastana əsirdi.
Ölkə zəif, imkansız, halı pisdi millətin,
Arxalı köpəkləri silahla yenmək çətin...
İşğalçı göz yaşıyla əl atırdı hər yana,
Dünya bizi eşitmir, dünya ona inanan.
Ancaq Türkün şərəfi taxtından enməmişdi,
İçimdəki ümidlər sozalıb sönməmişdi...

Ən nəhayət, şair qeyd edir ki, düşmən nə qədər amansız olsa da, torpaqları özünün zəhərli nəfəsi ilə murdarlamağa çalışsa da, şəhərləri yox etsə də, kəndləri dağıtsa da, türkün mənəvi varlığını qürur taxtından endirə bilməmişdi.

Əsərin bu parçasına şair qələbə günlərinin tarixini qoyur: "Noyabr, 2020". Bəli zamanlar ötəcək, dövranlar dəyişəcək. Biz həmin noyabr günlərini, 2020-ci ili xalqımızın qürur tarixi kimi unutmayacaq, yadda saxlayacağıq. Əslində şairin məqsədi də elə budur. O istəyir ki, xalq öz tarixini unutmasın, yaddaşında qoruyub saxlasın.

"Qarabağa dönüş" poeması S.Rüstəmxanlının yaradıcılığının xüsusi bir mərhələsi kimi yadda qalacaq. Çünki özünün dediyi kimi bu əsər Azərbaycan əsgərinin torpaq üzərində yazılmış qəhrəmanlıq kitabının sözlə ifadə olunmuş səhifələridir.

S.Rüstəmxanlı "Qarabağa dönüş" poeması ilə Azərbaycan yazarlarına bir daha göstərdi ki, qəlbi vətən eşqi ilə çırpınanlar üçün yaşın fərqi yoxdur.

Düşünürəm ki, Qarabağa dönüş müasir dövrün ən möhtəşəm Qarabağnamələrindən biri kimi yadda qalacaq.

***19.07.2024***